# Ürək yanğısı...



**"21.09.2020... Bu gün düz 5 il olar evdən çıxıb gedəni...Bu gedişinlə unudulmaz və qürurlu tarix yazdığını hər il daha çox anlayıram, amma sənsizliyin həsrəti, acısı, ürək yanğısı daha çox incidir...". Bu ifadələr Vətən müharibəsində Füzuli əməliyyatında, Cəbrayıl döyüşlərdə, Xocavəndin azadlığı uğrunda tarix yazan, Şuşada gedən ağır vuruşların birində əbədiyyət dünyasına qovuşan, 29 noyabr 2020-ci il tarixində Lənkəran rayonu, Yuxarı Nüvədi kəndində böyük izdihamla yolunda can qoyduğu torpağa tapşırılan, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin və Füzulinin azadlığı uğrunda medalları ilə təltif olunan, 2 qız atası, evin yeganə övladı, iki ali təhsilli zəfər şəhidi, baş leytenant Vüsal Kazımovun atası professor Kamran Kazımova məxsusdur.**

Qəlbi qubarlı, uca dağ kimi vüqarlı, Vətənini, xalqını canında əziz bilən professor sevdalandığı millətinin sevincinə tapınıb, hətta dərdini belə unutmağı bacarır. Əhsən, belə böyük ürək sahibinə!

Müdriklər beşiyi, igidlər yurdu bütöv Azərbaycanın dəyərli alim oğlu yazıb-yaratmaqdan da qalmır. Professorun dediyi kimi, bir neçə ilin gərgin əməyinin növbəti bəhrəsi olan, istedadlı şair, Prezident təqaüdçüsü, filologiya üzrə fəlsəfə doktoru, dosent Elşad Səfərlinin yaradıcılığına həsr olunmuş " Elşad Səfərlinin yaradıcılığın tədqiq və təhlil koteksti" monoqrafiyası "Qanun nəşriyyatı"nda çapdan çıxıb. Professor bildirir ki, kitab İkinci Qarabağ müharibəsində qələbəmizin 5-ci ildönümünə və başda oğlum baş leytenant Vüsal Kazımov olmaqla bütün şəhidlərimizə ithaf olunub.

**Zəfər ORUCOĞLU**